# Yuxu kimi bir ömür



**"Mirzağa dünyaya gəlməmişdən bir neçə gün əvvəl yuxuda görmüşdüm ki, qardaşım Məmmədbağırın evi yanır. Bütün qohum-əqrəba da oradadır. Nə qədər çalışsaq da, alovu ram edə bilmirdik. Bu zaman əlində Azərbaycan bayrağı, əynində zabit mundiri olan bir oğlan uşağı gülə-gülə odun içindən çıxdı. Onun yanan evdən çıxması ilə də alovun sönməsi bir oldu. Orada olan qohum-əqrəba bu oğlana yanğını söndürdüyü üçün minnətdarlıq edəndə, "mən Məmmədbağırın oğlu Mirzağayam, bu yanan da bizim öz evimizdir", - dedi.**

Ertəsi gün qardaşımı görüb oğlu olacağını yuxuda gördüyümü dedim. Heç bir həftə çəkmədi ki, qardaşımın oğlu dünyaya gəldi, uşağa atamızın adını qoyduq - Mirzağa. O, uşaqkən yolunu özü seçdi. "Hərbçi olacağam, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda lazım gələrsə canımı da qurban verəcəyəm", - dedi. 2011-ci ildə Xıllı qəsəbəsində R.Gözəlov adına 1 nömrəli tam orta məktəbin doqquzuncu sinfini bitirib təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseydə davam etdirdi".

Cavad kişi qəfildən hönkürüb ağladı. Sən demə, qardaşı oğlunun çıxdığı bu yol onu şəhidliyə aparacaqmış... "Allah Mirzağa və Vətən üçün canından keçən bütün şəhidlərimizə rəhmət etsin. Böyük dərddir. Atası hələ də şəhid olmasına inanmır, övladının yolunu gözləyir", - dedi.

Şəhid Əliyev Mirzağa Məmmədbağır oğlu 1996-cı il iyunun 15-də Neftçalanın Xıllı qəsəbəsində anadan olub. Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirdikdən sonra 2014-2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirib.

2018-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində leytenant hərbi rütbəsində taqım komandiri kimi hərbi xidmətə başlayan Mirzağa 2020-ci il sentyabrın 27-dən torpaqlarımızın azad edilməsi uğrunda gedən Vətən müharibəsində iştirak edib. Füzuli və Cəbrayıl rayonlarının işğaldan azad olunması uğrunda döyüşlərdə iştirak edib.

Oktyabrın 7-də Cəbrayıl rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirib, düşmənin xeyli canlı qüvvəsini məhv edib. Geri dönərkən döyüş yoldaşları ilə birgə olduğu PDM ermənilər tərəfindən vurulub. Gənc leytenant Mirzağa Əliyev hərbi maşındakı 2 döyüş yoldaşını çıxarıb onların həyatını xilas etsə də, özü şəhidlik zirvəsinə ucalıb.

Əmisi Cavad kişi deyir ki, qara xəbər tez yayılır: "Kənddə hamı Mirzağanın şəhid olmasından danışırdı. Nəşi gec gəldiyindən kənddə şayiələr də yayılmışdı. Atasından DNK analizi götürmüşdülər... Nə isə, oktyabrın 18-də şəhidimizi Xıllı qəbiristanlığında dəfn etdik".

Qəhrəman döyüşçü, gənc leytenant Mirzağa Əliyev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 9 fevral, № 28.- S.15.